Xalq qəzeti .- 2019.- 2 oktyabr.- S.10.

Təqvim yada salır

**Bugünlərdə ölkənin elmi-mədəni ictimaiyyəti tanınmış tarixçi alim, elm və təhsil sahələrində nüfuzlu mütəxəssislərdən biri, Azərbaycan MEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Fəxrəddin Səfərlinin anadan olmasının 70 illiyini qədirbilənliklə qeyd edir.**

**Dünyaya 1949-cu ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində göz açmış Fəxrəddin Səfərli 1966-cı ildə orta məktəbi bitirib, Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialında tarix ixtisası üzrə ali təhsil alıb. Seçdiyi ixtisasa mükəmməl yiyələnmiş Fəxrəddin müəllim 1971-ci ildə doğulduğu Cəhri kəndində pedaqoji fəaliyyətə başlayıb və 8 il buradakı orta məktəbdə çalışıb. Tarix elminə sonsuz maraq onu Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzinə gətirib.**



# Naxçıvan tarixinin yorulmaz tədqiqatçısı

Burada elmi fəaliyyətə başlayan Fəxrəddin müəllim Azərbaycan tarixinin çox vacib və köməkçi bir sahəsini– epiqrafikanı seçib. Azərbaycan tarixinə və tarixi abidələrimizə güclü maraq gənc araşdırıcını Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun arxeologiya və etnoqrafiya bölməsində dissertantlığa həvəsləndirib və seçdiyi elmi istiqamət üzrə Naxçıvanın epiqrafik abidələrinin tədqiqinə başlayıb.

Fəxrəddin Səfərli "Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarix- mədəniyyət abidələri kimi (XVI – XIX əsrlər)" mövzusunu namizədlik dissertasiyasını 1987-ci ildə uğurla müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb. Naxçıvan Elmi Mərkəzində kiçik elmi işçi kimi fəaliyyətə başlayan Fəxrəddin müəllim sonrakı illərdə böyük elmi işçi, arxeologiya və etnoqrafiya şöbəsinin müdiri vəzifəsinə yüksəlib.

İllər keçdikcə, təcrübəsi artan, fəaliyyət dairəsi genişlənən Fəxrəddin müəllim Naxçıvanın müsəlman epiqrafikası abidələrinin əksəriyyətini qeydə alıb, onları Azərbaycanın Orta əsrlər dövrü tarix və mədəniyyətinin mənbəyi kimi tədqiq edib. Fəxrəddin Səfərli Naxçıvan bölgəsinin epiqrafikasına aid "Ordubad şəhərinin epiqrafik abidələri", "Culfa bölgəsinin epiqrafik abidələri", "Naxçıvan şəhərinin epiqrafik abidələri", "Эпиграфические памятники Нахчывана", "Epiqrafika", "Müsəlman kitabələri tarix-mədəniyyət abidələri kimi", "Azərbaycan tarixi dərslərində epiqrafik materiallardan istifadə" kimi monoqrafiya, kitab, dərslik, tədris və metodik vəsaitləri nəşr etdirib. Müəllifin "Naxçıvan epiqrafik abidələrində görkəmli şəxsiyyətlər" monoqrafiyasında muxtar respublika ərazisindəki epiqrafik abidələr əsasında orta əsrlərdə Azərbaycan dövlətlərinə rəhbərlik etmiş 10 hökmdar və 97 nəfər görkəmli dövlət xadimi, alim, sənətkar və b. haqqında geniş məlumat verilib, onların fəaliyyətindən bəhs edilib.

Tarixçi alimin fəaliyyətində Naxçıvan Dövlət Universitetində çalışdığı illər mühüm yer tutur. 1995-ci ildən NDU-da müəllim kimi fəaliyyət göstərən Fəxrəddin Səfərli sonradan Azərbaycan tarixi kafedrasının professoru, 2002–2007-ci illərdə isə ali məktəbin Həmkarlar İttifaqı Komitəsinin sədri olub.

Tarixçi alim illər keçdikcə, daha aktual problemləri öyrənməyə, sovet dövründə yasaq edilmiş mövzuları araşdırmağa başlayıb. Onun "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusundakı doktorluq dissertasiyasında Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq maddi-mədəniyyət nümunələri, orta əsr qaynaqları, epiqrafik faktlar əsasında müsəlman ruhanilərinin, Naxçıvanda fəaliyyət göstərən sosial-siyasi və ideoloji mərkəzlərin (xanəgahların, ziyarətgahların, məscidlərin, mədrəsələrin) ölkənin həyatında rolu və mövqeyi məsələsi tədqiq olunub. Bununla bağlı müəllifin üç monoqrafiyası– "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər", "Naxçıvanda sufiliklə bağlı mərkəzlər", "Orta əsrlər zamanı Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu" və çoxsaylı elmi məqaləsi çap edilib.

Fəxrəddin Səfərlinin 2007-ci ildən sonrakı dövr elmi fəaliyyəti AMEA Naxçıvan Bölməsi və onun Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu ilə bağlı olub. O, həmin instituta direktor seçilib, bundan sonrakı fəaliyyətini bu elmi qurumun rol və mövqeyinin möhkəmləndirilməsinə, kadr potensialının artırılmasına və elmi tədqiqat işinin gücləndirilməsinə həsr edib.

Ümummilli lider Heydər Əliyev Naxçıvan abidələrindən bəhs edərkən bildirmişdir ki, Naxçıvan kimi kiçik bir ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. Elə buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli sərəncamına əsasən, Fəxrəddin Səfərlinin rəhbərliyi ilə institut əməkdaşları 2 il ərzində 1200-dən çox tarix və mədəniyyət abidəsini aşkar edib və pasportlaşdırıb. Bu tarix və mədəniyyət abidələrindən 600-ə yaxını dünya və ölkə əhəmiyyətlidir.

Tarix və mədəniyyətə, tarixi abidələrə, milli-mənəvi dəyərlərə bağlılıq Fəxrəddin müəllimin elmi fəaliyyətində mühüm yer tutur. Onun "Duaların Allaha çatdığı yer– Əshabi-Kəhf", "Əshabi-Kəhf Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi", "Naxçıvanın məscid və ziyarətgahları", "Naxçıvan imamzadələri", "Naxçıvan türbələri", "Naxçıvan türk-islam mədəniyyəti abidələri", "Naxçıvan xalçaçılığı: tarixdə və günümüzdə", "Qazançı körpüsü" kimi əsərləri bilavasitə tarix və mədəniyyət abidələrimizi tanıtmaq istiqamətində atılmış çox böyük uğurlu addımdır.

2018-ci ildə Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilәndə Fəxrəddin Səfərli bununla əlaqədar monoqrafiya hazırlayıb və burada Naxçıvanın türk-islam mədəniyyəti abidələri haqqında məlumat verib, təhlillər və ümumiləşdirmələr aparıb. Müəllifin "Tarixi mənbələrdə Nuh peyğəmbər" kitabı daha böyük maraq doğurub.

Erməni millətçilərinin Naxçıvanla bağlı uydurma ərazi iddialarını elmi dəlillərlə cavablandıran Fəxrəddin Səfərlinin "Qondarma erməni soyqırımı və tarixi həqiqətlər" kitabında bu başabəla toplumun Naxçıvana köçürülməsi, müsəlman epiqrafikası abidələrinin məlumatları əsasında ərazilərin Azərbaycan xalqına məxsusluğu, erməni iddialarının əsassızlığı sübuta yetirilir, maddi-mədəniyyət nümunələrinə qarşı erməni vandalizmi ifşa olunur.

AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin ümummilli lider Heydər Əliyev haqqında qələmə aldığı "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyasında ulu öndərin nəzəri irsinin ölkəmizin gələcək uğurlarının əsasını təşkil etməsi əsaslandırılıb və bu təlimə dönə-dönə müraciət edilməsinin zəruriliyi göstərilib.

AMEA Naxçıvan Bölməsində bir sıra ümumiləşdirici və fundamental əsərlərin, xəritələrin, ensiklopediyaların hazırlanmasında da Fəxrəddin Səfərlinin böyük əməyi olub. Onun bilavasitə iştirakı və müəllifliyi ilə ikicildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası", üçcildlik "Naxçıvan tarixi" əsərləri hazırlanıb və nəşr edilib.

Professor Fəxrədin Səfərli Azərbaycan tarix elmində öz sözünü deyən yaradıcı və məhsuldar alimdir. O, 600-ə yaxın elmi və elmi-kütləvi əsərin müəllifidir. Bunlardan 12-si monoqrafiya, 3-ü kitab, 5-i kitabça, 2-si dərslik, 2-si metodik vəsait, 2-si tərtibat, 300-dən çoxu isə elmi məqalədir. Onun tədqiqatları Rusiya, Bolqarıstan, Türkiyə, İran, Ukrayna və başqa xarici ölkələrdə nəşr edilib.

Alim ölkəmizin, eləcə də muxtar respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edir. Fəxrədin Səfərli IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib, Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin sədri olub. Elmi fəaliyyəti və tədqiqatçılıq bacarığı, kadr hazırlığındakı rolu nəzərə alınaraq tarixçi alim 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib, 2010-cu ildə professor elmi adına layiq görülüb. Səmərəli elmi fəaliyyətinə və xidmətlərinə görə Prezidenti İlham Əliyevin sərəncamı ilə AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərliyə "Əməkdar elm xadimi" fəxri adı verilib.

70 yaş insan ömrünün müdriklik zirvəsidir. Fəxrəddin müəllimə belə bir yüksək məqamda möhkəm cansağlığı və elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq!

***İsmayıl HACIYEV,***
***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik***